# Milli dəyərlərin keşiyində

**Milləti millət, dövləti dövlət edən ən əhəmiyyətli amillərdən biri milli dəyərlərdir. Xalqın keçmişi və mədəniyyəti nə qədər qədim olsa da, milli və dini dəyərlərinin zəifləməsi anarxiyanın meydana gəlməsinə və geniş vüsət almasına, parçalanmasına və yox olmağına gətirib çıxarır.**

Milli dəyərlərə bağlılıq elə böyük bir gücdür ki, xalqın siyasi çətinliklərin öhdəsindən gəlməsini, daxili və xarici təhlükələri sovuşdurmasını, dözümlülüyünü və mövcudluğunu təmin edir. Regionda və dünyada Azərbaycanın mövqelərinin möhkəmlənməsi, milli dəyərlərin möhkəm dayaqlar üzərində qərar tutması ölkənin müstəqilliyinin birbaşa nəticəsidir.

Bütövlükdə, milli dəyərlərimiz böyük mədəniyyətimizin bir hissəsidir. Xalqımızın tarix boyu əldə etdiyi nə varsa, onun əsasında mənəvi dəyərlərimiz durur. Milli dəyərlər adət-ənənələrlə nəsildən-nəslə ötürülən yazılmamış qayda-qanunlardır, onların mənfi ünsürlərdən qorunması və təbliğində gənclərin üzərinə böyük məsuliyyət düşür.

Ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin müxtəlif vaxtlarda gənclərlə bağlı çıxışlarından, söylədikləri nitqlərindən hər bir gənc nəticə çıxarır, vətənpərvər kimi yetişir, qəhrəmanlığı, mətinliyi, qorxmazlığı həyat amalına çevirir.

"Biz öz milli mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan çıxmış bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik". Bu müdrik sözlər, dəyərli fikirlər ümummilli lider Heydər Əliyevin gənclərimizin milli-mənəvi dəyərlər əsasında tərbiyələnməsinin vacibliyini vurğuladığı proqram xarakterli çıxışlarındandır.



Ulu öndər Heydər Əliyevin vaxtilə həyata keçirdiyi milli–mənəvi dəyərlərə diqqət və qayğı missiyası uğurla davam etdirilərək 2012-ci il Naxçıvan Muxtar Respublikasında "Milli dəyərlər ili" elan olunmuşdur. Çünki neçə-neçə nəsillərdən bizə miras qalmış mənəvi sərvətlərin, adət-ənənələrin, dini-əxlaqi dəyərlərin qorunub saxlanması, milli dəyərlərin qloballaşan dünyada ümumbəşəri dəyərlərlə tənzimlənməsi yaşadığımız əsrin ikinci onilliyində xalqımızın qarşısında duran ən böyük tarixi vəzifədir. Bu gün milli ideologiyamızın əsas tərkib hissələrindən biri azərbaycançılıqdır.

Azərbaycançılıq həyat tərzində, əxlaqda, mənəviyyatda, dildə, dində, ədəbiyyatda – mənəvi mədəniyyətin bütün sahələrində əsas istiqamətləndirici meyar olmalıdır. Şifahi xalq ədəbiyyatı, el sənəti, milli musiqi, millətin mədəni-mənəvi mövcudluğunun bütün təzahürləri bu gün vahid bir ideya ətrafında sıx surətdə birləşməlidir.

Əsrlərdən bizə miras qalmış milli dəyərlər nəinki təkcə müasir milli mövcudluğumuzun, həm də siyasi mövcudluğumuzun, dövlətçiliyimizin qarantına çevrilmişdir. Milli-mənəvi varlığımızın qorunub saxlanması hər birimizin vətəndaşlıq borcudur.

Ümumiyyətlə, milli dəyərlər deyəndə nə başa düşülməlidir? Bütövlükdə, milli ideologiya, milli tarix, dil, mədəniyyət və incəsənət, ədəbiyyat, özünüdərk, din, əxlaq və ailə, bir sözlə, milli olan bütün mənəvi sərvətlər milli dəyərlərdir. Milli dəyərlər hər bir millətin özünüdərk konsepsiyasından meydana çıxan mühüm amildir. Hər bir xalqın milli dəyərləri onun milli mənəviyyat göstəricisidir. Bu mənəviyyatın qaynaqlandığı mənbə isə milli tarix və onun gerçəklikləri, milli mədəniyyət və incəsənət, milli adət və ənənələrdir.

Bu gün mədəni-mənəvi köklərimizə qayıdış yolunda, milli mənəviyyatımızın təkcə forma baxımından deyil, həm də məzmun baxımından bərqərar olması uğrunda aparılan mübarizədə elm, təhsil və mədəniyyət ocaqlarının, xüsusilə də elm mərkəzlərinin oynadığı rol nəzərəçarpacaq dərəcədə əhəmiyyətlidir. Buna görə də bu gün milli-mənəvi mühitin qorunması problemi aktual olaraq ortaya çıxır. Həyat, zaman bir yerdə dayanıb gözləmir və davam etməkdədir. Qloballaşma dönəmində ümummilli mənafeyə xidmət edən ümumbəşəri sivilizasiyadan bəhrələnmək labüddür. Biz ənənələrimizə sədaqət prinsipindən, yüksək mənəvi dəyərlərimizi, milli kimliyimizi qorumaq prinsipindən çıxış etməliyik. Çünki özünütəsdiq milli-tarixi köklərə arxalanır.

Müstəqillik dövründə milli mədəniyyətin və milli mənəviyyatın inkişafı üçün daha böyük imkanlar əldə etmişik. Hər birimiz milli dəyərlərimizin keşiyində xidməti borcunu sədaqətlə yerinə yetirən əsgər kimi dayanmalıyıq.

**Zülfiyyə İSMAYIL,**
**AMEA Naxçıvan**
**Bölməsinin elmi işçisi**

**Bu məqalələr "Kaspi Geosiyasi Araşdırmalar Mərkəzi" İctimai Birliyinin AR Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə həyata keçirdiyi "Milli-mənəvi dəyərlərin, Azərbaycançılıq məfkurəsi və Azərbaycan dilinin qorunmasına dair təşəbbüslər" layihəsi çərçivəsində hazırlanıb.**